1_Layout 1 12.09.2014 12:25 Page 1

Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.

İlham ƏLİYEV

ƏSGƏR

№ 17 (435)

15 sentyabr 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

AZƏRBAYCAN DÜNYA ÜÇÜN DAHA ÖNƏMLİ ÖLKƏYƏ ÇEVRİLƏCƏKDİR

AZƏRBAYCAN XARİCİ SİYASƏTİNDƏ BÜTÜN ÖLKƏLƏRLƏ DOSTLUĞA VƏ BEYNƏLXALQ TƏŞKİLATLARLA ƏMƏKDAŞLIĞA BÖYÜK ÖNƏM VERİR

Azərbaycan regional təhlükəsizlik və sabitlikdə mühüm rol oynayır. Bununla belə, bu gün regionumuzdakı təhlükəsizliyə ən böyük hədə Azərbaycanın ərazisinin iyirmi faizini təşkil edən Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasətidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin NATO-nun Uelsdə keçirilmiş sammitindəki çıxışından

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Uelsin Nyuport şəhərində keçirilən NATO sammitində iştirakı dövlət başçımızın alyansa üzv dövlətlərin və tərəfdaş ölkələrin rəhbərləri, eləcə də, BMT və digər beynəlxalq təşkilatları təmsil edən nümayəndələrlə növbəti görüşlərinə zəmin yaratdı. Tədbirdə BMT-nin və Avropa İttifaqının ali nümayəndələrinin də iştirakı sammitin beynəlxalq əhəmiyyətini daha da artırırdı. Dövlət başçımızın NATO-nun baş katibi Anders Foq Rasmussen və Böyük Britaniyanın Baş naziri Devid Kemeron, eləcə də Fransa Prezidenti Fransua Ollandla görüşləri Azərbaycan həqiqətlərinin Qərbdə növbəti dəfə səsləndirilməsinə imkan verdi. Bir zamanlar heç kəsin tanımadığı və ya tanımaq istəmədiyi Azərbaycan dövləti bu gün dünya və Avropa miqyaslı bütün tədbirlərə dəvət alır və fəal iştirak edir.

Ulu Öndər Heydər Əliyevin işləyib hazırladığı xarici siyasət kursunda beynəlxalq təşkilatlarla münasibətlərin qurulması və inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Bu siyasətin nəticəsi olaraq Azərbaycan dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının – BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər mötəbər qurumların üzvü kimi onların işində yaxından iştirak edir. Bundan başqa, ölkəmiz Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı kimi təşkilatlarla da fəal əməkdaşlıq edir. İndiyədək bu təşkilatlar tərəfindən ölkəmizdə onlarca iqtisadi və sosialyönümlü proqram və layihə həyata keçirilib. Ötən illərdə Azərbaycanın üzv olduğu və əməkdaşlıq etdiyi bütün beynəlxalq təşkilatlarla əlaqələri daha da genişlənmiş və möhkəmlənmişdir. 2012-2013-cü illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının üzvü kimi fəaliyyəti ölkəmizin beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığının bariz nümunəsidir.

Beynəlxalq aləmdə kifayət qədər nüfuz və etimad qazanmağımızın əsas səbəblərindən biri də son illər ölkəmizdə həm siyasi, həm də iqtisadi islahatların aparılması olub. Prezident İlham Əliyevin dediyi kimi, bu gün Azərbaycan nadir ölkələrdəndir ki, gələcəyini özü müəyyən edir, tam şəkildə müstəqil siyasət aparır. Azərbaycanda iqtisadi müstəqillik tam təmin edilibdir. Azərbaycan özünü təmin edən ölkədir. Beynəlxalq təşkilatlarda Azərbaycana olan rəğbət göz qabağındadır. Bunun əyani sübutu BMT Təhlükəsizlik Şurasına seçilməyimiz idi. Bu, tarixi bir hadisə idi. Dünyanın birinci aparıcı qurumu olan BMT Təhlükəsizlik Şurasına seçilməyimiz gənc müstəqil dövlət üçün böyük diplomatik və siyasi uğurdur.

Xarici siyasətimizin başqa bir istiqamətinə diqqət yönəldək. Prezident İlham Əliyevin diplomatik missiya rəhbərlərinin beşinci müşavirəsində dediyi kimi, Avropa ölkələri bizim ənənəvi tərəfdaşlarımızdır. Avropanın əksər ölkələri ilə bizim çox işgüzar və səmimi münasibətlərimiz vardır. Avropa bizim əsas ticarət tərəfdaşımızdır. Bizim ixrac məhsullarımız daha çox Avropa məkanına göndərilir.

Xarici siyasətimizdə daha bir prioritet istiqamət olan Asiya ölkələri ilə əməkdaşlığımız da çox sürətlə inkişaf edir. Prezident İlham Əliyevin Asiya ölkələrinə səfərləri, Asiya dövlətlərinin rəhbərlərinin Azərbaycana səfərləri, qarşılıqlı maraqlar və qarşılıqlı hörmət onlarla siyasi və iqtisadi əməkdaşlıq aparmaq üçün çox böyük potensial yaradıb. Müstəqil siyasətimiz və beynəlxalq məsələlərlə bağlı göstərdiyimiz prinsipiallıq Asiya ölkələrinin bizə olan rəğbətini artırır.

Prezident İlham Əliyev xarici siyasətimizi daha geniş məkanda reallaşdırmaq və daha səmərəli nəticələrə nail olmaq üçün dünyanın ən mühüm beynəlxalq təşkilatlarının tədbirlərinin Azərbaycanda keçirilməsinə nail olur. Son dövrlərdə elə bir il olmur ki, ölkəmizdə siyasi, iqtisadi, elmi, texniki, mədəni və idman sahələrinə aid olan bir neçə forum, simpozium, konfrans, spartakiada və ya başqa beynəlxalq tədbir keçirilməsin. Bu ilin aprelində Bakıda ATƏT Parlament Assambleyasının toplantısı keçirilmişdir. Dövlət başçımız həmin kürsüdən də sözümüzü çox kəsərli şəkildə dedi və region mətbuatı təxminən iki həftə həmin toplantı və Prezident İlham Əliyevin çıxışı barədə kifayət qədər materiallar dərc etdi.

Azərbaycan indi Avropa Şurası Nazirlər Komitəsinə sədrlik edir. Bizim Avropa Şurasında uğurlu fəaliyyətimiz orada Azərbaycana olan münasibəti tamamilə dəyişdirmişdir. Çünki keçən ilin yanvar ayında Azərbaycana qarşı hazırlanan qərəzli məruzə iflasa uğradı. O məruzəni təqdim edən deputat, demək olar ki, tamamilə biabır olmuşdur. Avropa Şurası Parlament Assambleyası o əsassız, qərəzli, yalan üzərində yazılmış məruzəni rədd etdi. Bu, Azərbaycanın qələbəsi idi.

Azərbaycanın xarici siyasətinin mühüm istiqamətlərindən biri də enerji diplomatiyasıdır ki, bu da çox önəmli məsələdir. Son vaxtlar imzalanan sazişlər ("Şahdəniz-2", TANAP, TAP layihələri) bizim imkanlarımızı xeyli artıracaq və Azərbaycanı dünya üçün, Avropa üçün daha da önəmli ölkəyə çevirəcəkdir.

Azərbaycan Respublikası vətəndaşlarının 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə uyğun olaraq və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

1. 1996-cı ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1979-1995-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2014-cü il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2014-cü il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 sentyabr 2014-cü il.

DAXİLİ QOŞUNLARDA HƏRBİ İNTİZAMIN VƏZİYYƏTİNƏ HƏSR OLUNMUŞ HƏRBİ ŞURANIN İCLASI KEÇİRİLMİŞDİR

Sentyabrın 9-da Daxili Qoşunların Baş İdarəsində Hərbi Şuranın hərbi intizamın vəziyyəti və qarşıda duran vəzifələrə həsr olunmuş geniş tərkibdə iclası keçirilmişdir. İclasda Azərbaycan Respublikası Prezidentinin Müdafiə məsələləri üzrə köməkçisi xidmətinin baş məsləhətçisi general-mayor Rövşən Tapdıqov, Baş İdarənin şöbə və xidmət rəisləri, hərbi hissələrin komandirləri, komandirlərin tərbiyə işləri üzrə müavinləri və tərbiyə bölmələrinin rəisləri iştirak etmişdir.

Hərbi intizamın vəziyyəti və qarşıda duran vəzifələr barədə Mənəvi - psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov məruzə etmişdir.

Məruzədə bildirilmişdir ki, cari ildə Qoşunların şəxsi heyəti ilə tərbiyə işi, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, nizamnamədənkənar münasibətlərin və xəsarətalma hallarının qarşısının alınmasına yönəlmişdir. Qeyd olunmuşdur ki, xidməti döyüş tapşırıqlarının xüsusiyyəti nəzərə alınmaqla onların müvəffəqiyyətlə yerinə yetirilməsində psixoloji dözümlüyün artırılmasına, xidmətin keyfiyyətlə aparılmasında komandir və rəislərin şəxsi nümunə göstərmələrinə xüsusi diqqət yetirilmiş, şəxsi heyətin ictimai-siyasi hazırlığının daha da artırılmasına önəm verilmişdir. Bu məqsədlə müntəzəm olaraq hərbi intizamın vəziyyəti və keçirilən tərbiyə işi tədbirləri nəzarətdə saxlanılmış, hər ay təhlil edilərək, Daxili Qoşunların Komandanlığına məruzə olunmuş, müvafiq tövsiyələr verilmişdir. Bundan əlavə, baş vermiş ölüm, cinayət, hadisə, kobud intizam pozuntularının statistikasında 2013-cü illə müqayisədə müsbət dinamikanın müşahidə olunduğu vurğulanmış və bir sıra nöqsanların mövcudluğu nəzərə çatdırılmışdır.

Sonra Hərbi Şuranın iclasında bir sıra hərbi hissələrin komandiri və onların tərbiyə işləri üzrə müavinləri dinlənilmişdir. Dinləmələr zamanı çıxış edənlər mövcud nöqsanlar, onların yaranma səbəbləri, baş vermə şəraitləri ilə bağlı Hərbi Şuranın üzvlərinin suallarına izahat vermiş, bu nöqsanların aradan qaldırılması və gələcəkdə təkrarlanmaması üçün görülməsi zəruri olan tədbirləri məruzə etmişlər.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Ş.Məmmədov yekun nitqi söyləyərək bildirmişdir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə əhatə olunmuş Daxili Qoşunlar ötən müddət ərzində ictimai asayişin və təhlükəsizliyin keşiyində ayıq-sayıq dayanmış, cinayətkarlığa qarşı mübarizədə, ictimai təhlükəsizliyin təmin edilməsi üzrə tədbirlərdə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirak etmiş və qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirmişdir.

Daha sonra qeyd etmişdir ki, ötən dövrü ərzində qoşunlarda şəxsi heyətlə tərbiyə işinin təşkilində nailiyyətlər əldə edilmiş, dövlət əhəmiyyətli əlamətdar tədbirlər icra olunmuş, ümumilikdə bu istiqamətdə mühüm işlər həyata keçirilmişdir. Hərbi intizamın möhkəmləndirilməsində müsbət nailiyyətlərin qazanıldığını vurğulayan general-mayor Ş.Məmmədov qarşıda duran əsas vəzifələrin icrasının daha yüksək səviyyədə təmin edilməsi məqsədilə hərbi hissələrdə və bölmələdə tərbiyə işi tədbirlərinin keyfiyyətlə həyata keçirilməsi, qanunçuluğa riayət edilməsi, hərbi kollektivlərin möhkəmləndirilməsi və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasında ictimai təşkilatların rolundan geniş istifadə edilməsi və digər kompleks tədbirlərin görülməsi barədə müvafiq tapşırıqlar vermişdir.

O, əminliklə qeyd etmişdir ki, Daxili Qoşunların rəhbərliyi başda olmaqla, hərbi hissələrin komandanlıqları, Baş İdarənin şöbə və xidmət rəisləri Azərbaycan Respublikasının qanunlarından, ölkə prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin fərman və sərəncamlarından, Daxili İşlər Nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək, ölkədə sabitliyin və hüquq qaydasının keşiyində mətin dayanacaqlar.

Mətbuat xidməti

2_Layout 1 11.09.2014 17:43 Page 1

"ƏSRİN MÜQAVİLƏSİ" – AZƏRBAYCANIN İQTİSADİ MÜSTƏQİLLİK YOLUNUN BAŞLANĞICI

Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır.

Heydər Əliyev, Ümummilli Lider



1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq", "Günəşli" yataqlarının birgə işlənməsi haqqında müqavilə imzalandı. Bütün çətinliklərə baxmayaraq, Azərbaycanın milli mənafeyinə uyğun hazırlanmış müqavilə öz müstəsna əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını aldı.

Təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmış "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin ***(Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı)*** 13 ən məşhur neft şirkəti ***(Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə Petrolları, Penzoyl, İtoçu, Remko, Delta)*** iştirak etmişdir.

"Əsrin müqaviləsi" Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildi və 12 dekabr 1994-cü ildə qüvvəyə mindi. İlk günlərdən başlayaraq Azərbaycan Beynəlxalq Əməliyyat şirkəti yaradıldı və təsdiq olunmuş vahid proqram üzrə ARDNŞ ilə birgə işlərə başlandı. Bu saziş sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması üçün yol açdı.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlər başlandı. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu və böyük maillikli quyuların qazılması məqsədilə bu özülün üst modulu modernizə edilərək yeni qazma avadanlıqları ilə təchiz olundu. 1997-ci ildə Çıraq yatağından neft hasilatına başlandı.

1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı.

Şimal istiqamətində inşa olunmuş Bakı-Novorossiysk kəməri ilə ilk dəfə neft Novorossiysk limanına 25 oktyabr 1997-ci ildə nəql edildi.

Qərb istiqamətindəki Bakı-Supsa boru kəməri isə 17 aprel 1999-cu ildə işə salındı.

Xəzərin böyük dərinliklərində yerləşən sahələrdə dərin kəşfiyyat quyularının qazılması məqsədilə "Dədə Qorqud" (keçmiş "Kaspmorneft") və "İstiqlal" yarımdalma üzən qazma qurğusu təmir və modernizə edilmişdir.

Modernizə olunmuş qazma qurğularının köməyi ilə "Azəri-Çıraq-Günəşli" yataqlarında birgə aparılan işlər nəticəsində 6 kəşfiyyat quyusu qazıldı və neft ehtiyatları 30%-dən çox artırıldı.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Ümummilli Liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuş və tikintisinə başlanmışdır. BTC-nin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi.

Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi nəticəsində reallaşan "Əsrin müqaviləsi" ölkədə sosial-iqtisadi durumu dirçəltməklə yanaşı, Azərbaycanın dünya dövlətləri ilə, o cümlədən, dünya xalqları ilə əlaqələrinin yenidən qurulmasına təkan verdi.

mayor R.Sarıyev

15 SENTYABR - BAKININ AZAD OLUNDUĞU GÜN

Bakının erməni-bolşevik işğalından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. 96 il bundan əvvəl, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Əlahiddə Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Beləliklə, həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin, bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub.



Ön cərgədə: *sağdan Nuru Paşa və general Əliağa Şıxlinski, 1918-ci il, Gəncə*

1918-ci ilin mayında Azərbaycanın müstəqilliyinin elan olunmasına baxmayaraq, ölkə ərazisinin bir hissəsi, Bakı və ətraf rayonlar erməni-bolşevik işğalı altında idi. Bunsuz isə Azərbaycanın dövlət müstəqilliyini təsəvvür etmək çətin idi. Müstəqilliyə təzə qovuşmuş, beynəlxalq aləmdə tanınmayan gənc dövlətimizin ərazi bütövlüyünü təmin etmək imkanları hələ yetərincə deyildi. Belə bir şəraitdə özünün çox ağır durumda olmasına baxmayaraq, Osmanlı Türkiyəsi qardaş Azərbaycanın ərazi bütövlüyünü təmin etmək məqsədilə Nuru paşanın komandanlığı ilə hərbi qüvvələrini Azərbaycana göndərdi.

Avropa dövlətləri türk qoşunlarının Azərbaycana gəlməsinə etiraz etsələr də bunun qarşısını ala bilmədilər.

Türk-Azərbaycan qoşunlarının Bakıya hücumu sentyabrın 15-də səhər saat 5:30-da başlandı. Hücumda 8 min türk, 6 min azərbaycanlı iştirak edirdi. Rus, erməni və ingilislərdən ibarət hərbi birləşmənin sayı isə 18 minə yaxın idi. İngilis qüvvələri artıq Ənzəliyə çəkilmişdilər. Saat 15:00-da Qafqaz İslam Ordusunun 38-ci alayı Qaraşəhərə daxil oldu və bununla da Bakının daşnak-bolşevik qüvvələrindən təmizlənməsi baş tutdu.

Qəhrəman türk əsgərlərinin şücaəti və qanı bahasına Bakı və digər rayonların azad olunması ilə Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz hakimiyyətini ölkənin bütün hüdudlarında təmin etdi.

Məlum olduğu kimi, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırım siyasətinin əsas məğzi xalqımızı cismən məhv etmək və "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək idi. Amma türk qardaşlığı mənfur planın reallaşmasına imkan vermədi.

Möhtəşəm və tarixi qələbədən sonra Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı sentyabrın 17-də Gəncə şəhərindən Bakıya köçürüldü.

Beləliklə, Azərbaycanda dövlət quruculuğunun əsas mərhələsinə start verildi. Bir neçə ay sonra isə parlamentə demokratik qaydalar əsasında seçkilər keçirildi.

Sentyabrın 16-da Bakı ətrafında 5-ci Qafqaz diviziyasının və 15-ci piyada diviziyasının rəsmi keçidi oldu.

Bakının bolşevik-daşnak işğalından qurtulması şəhərdə əsl bayrama səbəb olmuşdu. Məşhur milyonçu və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev türk ordusunun şərəfinə təntənəli ziyafət təşkil etdi. Ziyafət indiki Dövlət Filarmoniyasının binasında keçirildi. H.Z.Tağıyev türk ordusunun komandanı Nuru paşaya və onun qəhrəman sərkərdələrinə hədiyyələr təqdim etdi.

Bakının azad olunması üçün həyata keçirilən hərbi əməliyyatlarda 1130 əsgər və zabitimiz şəhid oldu.

Bu gün təkcə Bakıda deyil, Şamaxıda, Göyçayda və digər rayonlarda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olan türk əsgərlərinin məzarları dövlət səviyyəsində ziyarət olunur.

1918-ci il sentyabrın 15-də Bakının azad olunması Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı zəminində müstəsna əhəmiyyət daşıyan böyük hadisədir. 70 illik sovet hakimiyyəti illərində bu hadisənin məqsədyönlü olaraq yanlış izah olunmasına baxmayaraq Azərbaycan xalqı türk əsgərinin qəhrəmanlığını heç vaxt unutmadı, onu qəlbində yaşatdı.

Hər il Şəhidlər Xiyabanında türk əsgərlərinin xatirəsinə ucaldılmış abidənin önündə anma mərasimi keçirilir. Aradan uzun illər keçməsinə baxmayaraq, Türkiyə Ordusu tərəfindən göstərilən qardaşlıq köməyi daim minnətdarlıq hissi ilə xatırlanacaq.

"Əsgər"

JANDARM BAŞ KOMANDANLIĞININ ZABİTLƏRİ DAXİLİ QOŞUNLARDA HƏYATA KEÇİRİLƏN ABADLIQ-QURUCULUQ İŞLƏRİNİ YÜKSƏK QİYMƏTLƏNDİRMİŞLƏR

Avqustun 26-dan 29-dək polkovnik Zekeriya Demirdağın rəhbərlik etdiyi Türkiyə Respublikası Jandarm Baş Komandanlığının nümayəndə heyəti (mayor Hakan Elmas, kapitan Ergün Baydeniz və kapitan Salim Baktaş) Daxili Qoşunlarda səfərdə olmuşdur.

Səfərin birinci günü Jandarm Baş Komandanlığının zabitləri Şəhidlər Xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsini yad etmiş, "Əbədi məşəl" kompleksi önünə gül dəstələri qoymuşlar.

Sonra torpaqlarımızın azadlığı uğrunda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının "Qardaşlıq məzarı" önünə gül dəstələri düzülmüş, türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə kompleksi də ziyarət olunmuşdur.

Həmin gün Daxili Qoşunların Baş İdarəsində türkiyəli zabitləri Daxili Qoşunlar Komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov qəbul etmişdir.

Nümayəndə heyətini səmimi salamlayan general-mayor F.Səmədov Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Respublikası Jandarm Baş Komandanlığı arasında günü-gündən inkişaf edən əməkdaşlıq münasibətləri, xüsusilə 1997-ci il oktyabrın 31-də imzalanmış «Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol»un müddəalarının bu gün də çox uğurla davam etdirildiyini vurğulamışdır. Qeyd olunmuşdur ki, Daxili Qoşunlardan indiyədək yüzlərlə hərbi qulluqçu Türkiyə Respublikası Jandarm Baş Komandanlığının təlim-tədris mərkəzlərində müxtəlif təlim kursları keçmişdir.

Görüşdə Daxili Qoşunlarda təlim-tədris sahəsində həyata keçirilmiş mühüm tədbirlər barədə söhbət açılmış, bu istiqamətdə Azərbaycan Respublikasında ezamiyyətdə olan Türkiyə Respublikasının Jandarm zabitlərinin əvəzsiz rol oynadıqları diqqətə çatdırılmışdır.

Polkovnik Z.Demirdağ səmimi və qonaqpərvər qəbul üçün həm öz adından, həm də nümayəndə heyətinin üzvləri adından təşəkkürünü bildirmiş, Azərbaycan Respublikasına səfərdən məmnun olduğunu ifadə etmişdir. Daxili Qoşunlarla Jandarm Baş Komandanlığı arasındakı əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu deyən nümayəndə heyətinin rəhbəri səfərdə məqsədin Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda təlim-tədris istiqamətlərində icra olunan fəaliyyətlərlə yerindəcə tanış olmaqdan ibarət olduğunu bildirmişdir.

Səmimi və qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşün sonunda polkovnik Z.Demirdağa hədiyyə təqdim edilmiş və xatirə şəkli çəkdirilmişdir.

Qeyd edək ki, səfər çərçivəsində Jandarm Baş Komandanlığının zabitləri Daxili Qoşunların Ali Hərbi Məktəbində, 64412 və 16073 saylı hərbi hissələrdə hərbi qulluqçular üçün yaradılmış hərtərəfli şəraitlə tanış olmuşlar. Nümayəndə heyətinin rəhbəri polkovnik Z.Demirdağ Daxili Qoşunlarda həyata keçirilmiş abadlıq-quruculuq işlərini yüksək qiymətləndirərək, gələcəkdə daha böyük nailiyyətlərin əldə olunacağına inamını ifadə etmişdir.

"Əsgər"

YENİ MÜASİR BAĞÇA HƏRBİ QULLUQÇULARIN UŞAQLARININ İSTİFADƏSİNƏ VERİLDİ

Daxili Qoşunların hərbi qulluqçularının, onların ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması bu gün prioritet məsələlərdən biridir. Demək olar ki, hər il bütün hərbi hissələrdə müasir standartlara cavab verən yeni yaşayış binaları, yataqxanalar, sosial obyektlər istifadəyə verilir və bu proses ardıcıl olaraq davam etdirilir.

Sentyabr ayının 1-də Daxili Qoşunların Bakı şəhərindəki "N" saylı hərbi hissəsinin ərazisində yerləşən və hər cür şəraitə malik uşaq bağçasında tədris ilinin açılış mərasimi keçirilmişdir. Tədbirdə Daxili Qoşunlar Komandanının müavini - Maddi-texniki təminat İdarəsinin rəisi general-mayor Fəxrəddin Səmədov, Daxili Qoşunların hərbi qulluqçuları və onların ailə üzvləri iştirak etmişlər.

Açılış mərasimində çıxış edən general-mayor F.Səmədov dövlətimiz tərəfindən uşaqların tərbiyəsinə xüsusi diqqət yetirildiyini bildirərək, onların intellektual inkişafında, düzgün tərbiyə olunmasında, eləcə də məktəbəqədər hazırlıqlarında bağçaların mühüm rol oynadığını qeyd etdi. Bildirildi ki, yeni istifadəyə verilən bağçada hər qrupun özünəməxsus proqramı olacaq və buna uyğun gündəlik məşğələlər keçiriləcək. Məşğələlər əsasən ana dilindən, təbiətlə tanışlıqdan, ilkin riyazi biliklərdən, fiziki tərbiyədən və musiqidən ibarətdir. Şübhəsiz ki, bu tip fəaliyyətlərin balacaların sosial bacarıqlarının formalaşmasında, dünyagörüşlərinin artırılmasında əhəmiyyəti böyükdür.

Daha sonra bağçanın müdirəsi Şəbnəm Əliyeva, eləcə də valideynlər adından çıxış edən Mehriban Muradova müasir standartlara cavab verən uşaq bağçasında tədris dövrünün açılışının onlar üçün sevindirici hal olduğunu bildirdilər. Xüsusi olaraq vurğulandı ki, bütün bunlar Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev, eləcə də Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov tərəfindən Daxili Qoşunların hərbçilərinə, onların ailələrinə göstərilən xüsusi diqqət və qayğının bariz nümunəsidir.

Sonra qonaqlar valideynlərlə birlikdə bağçanın otaqlarını gəzmiş, uşaqlar üçün yaradılan şəraitlə tanış olmuşlar.

gizir X.Tağıyeva

3_Layout 1 11.09.2014 19:23 Page 1

DAXİLİ QOŞUNLARIN BİR QRUP HƏRBİ QULLUQÇUSU MEDALLA TƏLTİF OLUNMUŞDUR

Azərbaycan Respublikasının Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun müvafiq əmrinə əsasən, Daxili Qoşunların bir qrup hərbi qulluqçusu "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı və Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının 1-ci, 2-ci, 3-cü dərəcələri ilə təltif olunmuşlar.

Bu münasibətlə sentyabrın 4-də Daxili Qoşunların Baş İdarəsində keçirilmiş tədbirdə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov medalları hərbi qulluqçulara təqdim etmişdir.

Təqdimetmə mərasimdə şəxsi heyət qarşısında çıxış edən general-mayor Ş.Məmmədov təltif olunan hərbi qulluqçuları Daxili İşlər Naziri və Daxili Qoşunlar Komandanlığı adından bir daha təbrik etmiş, onlara xidməti-döyüş fəaliyyətlərində uğurlar arzulamışdır.

Mətbuat xidməti

DAXİLİ QOŞUNLARIN KOMANDANI TÜRKİYƏ JANDARM ZABİTLƏRİNİ QƏBUL ETMİŞDİR

Qoşunlarda uğurlu fəaliyyətini başa vuran polkovnik Eyyüp Şeker "Xidmətdə fərqlənməyə görə" döş nişanı ilə mükafatlandırılmışdır

Sentyabrın 4-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Daxili Qoşunlarda ezamiyyət müddəti başa çatan Türkiyə Jandarm Qüvvələrinin zabitləri polkovnik Eyyüp Şekeri və yeni fəaliyyətə başlayan polkovnik İzzet Cüralı qəbul etmişdir.

Səmimi əhval-ruhiyyədə keçən görüşdə general-mayor Ş.Məmmədov Daxili Qoşunlar ilə Jandarm Təşkilatı arasında əməkdaşlıq əlaqələrinin son illər daha da inkişaf etdiyini vurğulamışdır.

Cənab komandan Daxili Qoşunlarda uğurlu fəaliyyətini başa vuran polkovnik Eyyüp Şekerə komandanlıq və şəxsi heyət adından təşəkkürünü bildirmiş, "Xidmətdə fərqlənməyə görə" döş nişanı ilə təltif etmişdir. O, yeni müşavir polkovnik İ.Cürala gələcək fəaliyyətində nailiyyətlər arzulamışdır. Polkovnik İ.Cüral öz növbəsində bundan sonra da iki ölkənin müvafiq qurumları arasında qarşılıqlı əlaqələrin daha da inkişaf edəcəyinə əminliyini vurğulamışdır.

Qonaqlar səmimi qəbula və diqqətə görə general-mayor Ş.Məmmədova minnətdarlıqlarını bildirmişlər. Görüşün sonunda Türkiyə Jandarm Təşkilatının zabitləri ilə xatirə şəkli çəkdirilmişdir.

Xatırladaq ki, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında 1997-ci ildə imzalanmış müvafiq Protokola əsasən, Daxili Qoşunlarda təlim-tədris prosesinin təkmilləşdirilməsi məqsədilə türkiyəli zabitlər mütəmadi olaraq müəyyən müddətə müşavir və müəllim kimi Daxili Qoşunlara ezam olunurlar.

Polkovnik Eyyüp Şeker ezamiyyəti müddətində Daxili Qoşunların Komandanının müşaviri vəzifəsində çalışmışdır.

Mətbuat xidməti

Hərbi qulluqçularımız "ADEX 2014" sərgisində iştirak etmişlər

Sentyabrın 11-13-də Bakı Ekspo Mərkəzində ilk dəfə Azərbaycan Beynəlxalq Müdafiə Sənayesi "ADEX 2014" sərgisi keçirilmişdir. Milli müdafiə qüdrətimizi nümayiş etdirən sərgidə respublikamızın güc strukturları ilə yanaşı, DİN Daxili Qoşunların Komandanlığı və şəxsi heyəti də iştirak etmişdir.

Sərgidə radar qurğuları, döyüş sursatları, hərbi təchizat, mina əleyhinə sistemlər, elektron mühafizə vasitələri, yerdə, suda və havada mühafizə sistemləri, kosmik texnologiyalar, hərbi-dəniz texnikası, aviasiya texnikasının modernizasiyası üzrə proqramları, texniki kəşfiyyat vasitələri, telekommunikasiya, optik elektron cihazlar, simulyatorlar və təlim proqramları, eləcə də bir çox digər məhsullar nümayiş etdirilmişdir.

Sərginin əsas bölmələri:

Quru Qoşunları:
Zirehli və zirehsiz texnika, Komanda vermə və idarəetmə sistemləri, Döyüş sursatı və onun tərkib hissələri, Zirehli jiletlər və fərdi mühafizə sistemləri, Zenit müdafiə sistemləri, Tank əleyhinə raket kompleksləri, Simulyasiya və təlim sistemləri.

Hərbi Hava Qüvvələri:
Hərbi təyyarələr, vertolyotlar və pilotsuz uçuş aparatları, Silahlandırma və göstərişlər, Raketlər və HHM (hava hücumundan müdafiə) sistemləri, Aviasiya radioelektronikası və hərbi təlim sistemləri, Simulyasiya və təlim sistemləri.

Hərbi Dəniz Donanması:
Hərbi dəniz qüvvələri (HDQ) və gəmilərin sahil mühafizəsi, Komanda vermə və idarəetmə sistemləri, Hərbi-dəniz təyinatlı silah sistemləri, Naviqasiya və radiolokasiya sistemləri, Fərdi xilas sistemləri, Liman sistemləri və onların strukturu, Simulyasiya və təlim sistemləri.

Daxili Qoşunlar:
Ölkənin daxili təhlükəsizlik sistemləri, Kəşfiyyat sahəsində istifadə olunan avadanlıq və texnologiyalar, Fövqəladə hallar üçün nəzərdə tutulmuş avadanlıq və texnologiyalar, Xüsusi təyinatlı yük avtomobilləri, minik avtomobilləri və digər nəqliyyat vasitələri, Polis və təhlükəsizlik təyyarələri, vertolyotlar, Sahil mühafizə xidməti üçün ləvazimat və texnologiyalar, Axtarış-xilas avadanlıqları və texnologiyaları, Korporativ və fərdi təhlükəsizlik sistemləri.

DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİ: MÜHÜM VƏ ŞƏRƏFLİ MİSSİYANIN DAŞIYICISI

Bu il sentyabrın 15-də Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbi bu statusda ilk tədris dövrünə başlayır. Ali Hərbi Məktəbdə təhsil alacaq kursantlar artıq qəbul imtahanları vasitəsilə müəyyən edilib. Beləliklə, Daxili Qoşunlar üçün ali hərbi təhsilli, peşəkar zabit kadrlarının hazırlanmasında mühüm mərhələyə qədəm qoyulur. Qeyd etmək lazımdır ki, bu mərhələyə qədər Daxili Qoşunların tədris mərkəzi sayılan hərbi hissə təqdirəlayiq yol keçib. Bu yola nəzər saldıqda böyükmiqyaslı işlərin görüldüyünü, sanballı maddi-texniki bazanın formalaşdığını, ixtisaslı kadrların hazırlanması və təkmilləşdirilməsi yönündə zəngin təcrübə qazanıldığını vurğulamaq lazım gəlir.

Respublikamızın Daxili Qoşunları yaradılarkən və formalaşdığı sonrakı illərdə onun öz hərbi məktəbinin olmamasından irəli gələn boşluq kadrların yetişdirilməsi işində bütün kəskinliyi ilə özünü büruzə verirdi. Daxili Qoşunlar uzun müddət zabit kadrlarına olan ehtiyacını ehtiyatdan çağırılan və Müdafiə Nazirliyinin hərbi məktəblərinin, habelə Daxili İşlər Nazirliyi Polis Akademiyasının məzunu olan zabitlər hesabına təmin edirdi. Şübhəsiz ki, Daxili Qoşunların öz hərbi məktəbinin yaradılması asan məsələ deyildi və müvafiq baza olmadan bu işin reallaşdırılması mümkünsüz idi. 1994-cü ilin sentyabrında hazırkı Ali Hərbi Məktəbin yerləşdiyi ərazidə tədris təyinatlı hərbi hissə yaradıldı. O vaxtdan keçən dövrdə bu hərbi hissənin nömrəsi, struktur tərkibi, maddi-texniki təchizatı, tədris potensialı nəzərəçarpacaq dəyişikliklərə məruz qalıb. Mahiyət etibarilə hərbi hissə planlı şəkildə tədricən inkişaf edib. Hərbi hissədə ayrı-ayrı mərhələlərdə müddətli həqiqi hərbi xidmət çavuşlarının, gizirlərin hazırlanması, zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların təkmilləşdirmə kursu keçməsi kimi vacib vəzifələr uğurla yerinə yetirilib.

1997-ci il oktyabrın 31-də "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Cümhuriyyəti Hökuməti arasında AR DİN DQ-nin Baş İdarəsinin şəxsi heyətinə Türkiyə Jandarm İdarəsi tərəfindən ediləcək təlim-təhsil və təchizat yardımına aid Protokol"un imzalanması tədris hərbi hissəsinin həyatında da əsaslı dönüş yaradıb. Belə ki, həmin əməkdaşlıq Protokoluna uyğun olaraq, qardaş ölkənin Jandarm Təşkilatının zabit qruplarının Daxili Qoşunlarda mərhələ-mərhələ tədris fəaliyyəti təşkil edilib. Həmçinin Jandarm Təşkilatının yardımı ilə tədris hərbi hissəsində müasir standartlara cavab verən tədris mərkəzi yaradılıb. 1998-ci il iyulun 9-da tədris mərkəzinin rəsmi açılış mərasimi keçirilib. Həmin il oktyabrın 17-də isə tədris mərkəzinin birinci buraxılışı olub. Bu tədris mərkəzi Daxili Qoşunların zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçularının geniş dairəsini əhatə edən, müasir tədris proqramına əsaslanan təlim funksiyasını həyata keçirib. Qarşıya qoyulan məqsədə nail olunmasında türk zabitlərinin əməyi minnətdarlıqla qeyd edilməlidir. Belə bir təlimin keçirilməsi Daxili Qoşunların zabit, gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçularının ümumi hazırlığında keyfiyyət göstəriciləri baxımından ciddi irəliləyiş idi. Ehtiyatdan çağırılan, Müdafiə Nazirliyinin hərbi məktəblərini və Daxili İşlər Nazirliyinin Polis Akademiyasını bitirən, Daxili Qoşunlarda fəaliyyətə başlayan zabitlərin də tədris mərkəzində təkmilləşmə kursu keçməsi onların Daxili Qoşunlarda xidmətin xüsusiyyətlərinə yaxından bələd olması nöqteyi-nəzərdən zəruri addım olub.

Zabit kadrlarının hazırlanmasında növbəti mərhələ Daxili Qoşunlarda gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların arasından seçim aparılmaqla, mənəvi-işgüzar keyfiyyətlərinə görə layiq olanların orta ixtisas təlim proqramını mənimsəməsi barədə qərar qəbul olunmasından başlayır. 2006-cı il aprelin 17-də Respublika Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin göstərişinə uyğun olaraq Nazirlər Kabinetinin qərarı ilə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbi yaradılıb. Həmin vaxtdan etibarən Orta İxtisas Hərbi Məktəbində 2 illik tədris proqramına yiyələnən gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçular zabit paqonu daşımaq şərəfinə nail olublar. Bu addım Daxili Qoşunların zabit kadrlarına tələbatının müəyyən qədər ödənməsinə imkan verib. Həmçinin gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların hərbi karyera inkişafı baxımından stimullaşdırıcı rol oynayıb. Orta İxtisas Hərbi Məktəbinin fəaliyyəti Ali Hərbi Məktəb üçün zəruri olan bazanın yaradılması və təcrübənin toplanması prosesində də öz lazımi təsirini göstərib. Şübhəsiz ki, zabit kadrlarla komplektləşdirmə işinin ehtiyatdan çağırılma, digər güc strukturlarının tədris məktəblərinin məzunlarını cəlbetmə ilə yerinə yetirilməsi əvəzinə Daxili Qoşunların öz sıralarından gizir və müddətdən artıq xidmət edən hərbi qulluqçuların potensialından istifadə edilməsinə üstünlük verilməsi real imkanlar və zərurət səciyyəsini daşıyıb. Onu da xatırlatmaq yerinə düşər ki, SSRİ DİN DQ-nin kadr hazırlığı təcrübəsində də bu üsuldan istifadə edilib. Ancaq o da aydındır ki, görülmüş bütün bu işlər peşəkar zabit kadrlarının yetişdirilməsi üçün kifayət etmirdi. Bunun üçün ali təhsil verəcək məktəbin yaradılması, zamanın tələbi kimi, Daxili Qoşunların həyatında önəmli məsələ olaraq həllini gözləyirdi. Respublika Prezidentinin 25 fevral 2011-ci il tarixli sərəncamı ilə Daxili Qoşunların Ali Hərbi Məktəbinin yaradılması Daxili Qoşunların həyatında mühüm hadisə oldu. Ali Hərbi Məktəbin fəaliyyətə başlaması Daxili Qoşunların inkişafına təkan verən amildir. Peşəkarlıq, təkmilləşmə, təcrübədən bəhrələnmə, müasir dünyagörüşü, səriştə mükəmməl tədrisə bağlı olan məqamlardır. Ali Hərbi Məktəbdə təhsil alacaq gənclər bu cəhətləri nəzərə almalıdırlar. Sözsüz ki, yeni fəaliyyətə başlayan Ali Hərbi Məktəbin özünəməxsus tədris mühiti, ənənələri, kollektivi formalaşacaq. Məktəbin yerinə yetirəcəyi missiya çətin və şərəflidir. Diqqətəlayiq faktdır ki, Ali Hərbi Məktəbdə çalışmaq üçün Daxili Qoşunların təcrübəli zabitləri seçilib. O cümlədən, Daxili Qoşunların veteranları da tədris fəaliyyətinə cəlb olunub. Bu işdə Daxili Qoşunların veteranlarının təcrübəsi də böyük əhəmiyyət kəsb edir.

Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil alacaq kursantların bu seçimi Daxili Qoşunların cəmiyyətdə nüfuzu, ərazi bütövlüyümüzün və ictimai təhlükəsizliyin qorunmasında rolunun dərk edilməsi və buna dəyər verilməsi ilə birbaşa bağlıdır. Ali Hərbi Məktəbin üzərinə düşən əsas vəzifə savadlı və vətənpərvərlik əqidəsinə malik zabit kadrları yetişdirməkdir.

Xatırlatmaq yerinə düşər ki, Qarabağ cəbhəsində vuruşmuş zabitlər arasında SSRİ-nin müxtəlif hərbi məktəblərinin məzunu olanlar da var idi. Tamam başqa ideologiyanın təsiri ilə hərbi təhsil almış həmin zabitlər vətənin dar günündə karyeralarını, öz ehtiyaclarını, şəxsi maraqlarını düşünmədən doğma torpağa qayıdıblar. Azərbaycançılıq əqidəsinə dönük çıxmayan bu zabitlər ağır müharibə sınaqlarına sinə gəriblər. Belə zabitlərin həyat yolunu kursantlar öyrənsə, bunun özü bir həyat məktəbidir. Bununla yanaşı, Ali Hərbi Məktəbdə tərbiyə işi, mənəvi-psixoloji hazırlığın təməli elə qoyulmalıdır ki, kursantlar əqidəcə fədakar olsunlar, ölkəmiz yenidən müharibə sınaqları yaşayarsa, veteran zabitlərin layiqli davamçısı olmağı bacarsınlar.

Zəngin hərbi ənənələrə malik ölkələrdə ləyaqətli, mətin və əzmkar zabit obrazının yaradılması və aşılanması yönündə məqsədyönlü ideoloji iş aparılır. Bu təcrübənin öyrənilməsində fayda var.

Tədris prosesində gələcəyin komandirlərinə zabit şərəfinin və dəyanətinin nə qədər böyük məfhum olduğunu aşılayarkən şablon tezislərdən uzaqlaşmaq lazımdır. Kursantlar pedaqoji heyətdən yeni yanaşmalar və yeni ideyalar gözləyəcək. Bu günün kursantı (tələbəsi) romantikdən daha çox praqmatikdir. O, mürəkkəb nəzəriyyələrə elə də maraq göstərmir, daha çox praktiki cəhətləri xüsusi diqqətlə öyrənir. Bu məqamlar tədris metodikasında nəzərə alınmalıdır.

Məqsəd və məramı müvafiq əsasnaməsində konkret göstərilən Daxili Qoşunların Ali Hərbi Məktəbi qarşıya qoyulan tapşırıqları tam həcmdə yerinə yetirmək üçün müvafiq potensiala malikdir. Bu potensial yeni dövrün zabitini yetişdirməyə zəmin yaradır.

Yalçın Abbasov,
Daxili Qoşunların Veteranlar Şurasının katibi

4_Layout 1 12.09.2014 12:31 Page 1

BİZİM ŞÜAR:

"MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!"

UNUTMA!

1813-1828-ci illərə qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

1918-1920-ci illərdə cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

1988-1993-cü illərdə ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

Şuşa şəhəri	**- (289 kv.km)**	**- 8.05.1992**
Laçın rayonu	**- (1835 kv.km)**	**- 17.05.1992**
Kəlbəcər rayonu	**- (1936 kv.km)**	**- 2.04.1993**
Ağdam rayonu	**- (1094 kv.km)**	**- 23.07.1993**
Cəbrayıl rayonu	**- (1050 kv.km)**	**- 18.08.1993**
Füzuli rayonu	**- (1386 kv.km)**	**- 23.08.1993**
Qubadlı rayonu	**- (802 kv.km)**	**- 31.08.1993**
Zəngilan rayonu	**- (707 kv.km)**	**- 29.10.1993**

ABŞ-ın DÜNYANI HEYRƏTLƏNDİRƏN SİLAHI



Robot istehsalında peşəkarlaşan "Boston Dynamics"in yaratdığı yeni robot saatda 25 km sürətlə hərəkət edə bilir. Bu robota "Vəhşi pişik" adı verilib.

ABŞ Müdafiə Nazirliyinin "DARPA" proqramı çərçivəsində hazırlanan robotlar ABŞ ordusu üçün prototip kimi istehsal olunub.

Arı kimi vızıldayan, at kimi dörd ayaqla qaça bilən bu robotlar öz çevik hərəkətləri ilə diqqət çəkir. Çətin ərazilərdə hərəkət edə bilən "Vəhşi pişiy"in döyüşlərdə istifadə edilməsi planlaşdırılıb.

SƏS SÜRƏTİNƏ ÇATA BİLƏN SUALTI GƏMİ



Çində ağılasığmaz dərəcədə sürətli sualtı gəmi istehsal edilib. Çin elm adamları səs sürətinə çata bilən sualtı gəmi istehsal edərək nəqliyyat, yükdaşıma və döyüş texnologiyalarında yeniliyə imza atıb. Sualtı gəminin ilk səfəri 10 min kilometrlik Şanxay - San-Fransisko xəttində baş tutacaq. Sualtı gəminin bu məsafəni 2 saata qət edəcəyi xarici hərbi mütəxəssisləri şoka salıb. Həmçinin gəminin sürətinin 5700 km/saat olacağı açıqlanıb.

İDMAN

KOMANDAMIZ YARIŞIN QALİBİ OLDU

Daxili İşlər Nazirinin müvafiq əmrinə əsasən, 28-30 avqust tarixlərində daxili işlər orqan və hissələri arasında idmanın sambo növü üzrə şəxsi və komanda birinciliyi uğrunda yarış keçirilmişdir. Daxili Qoşunların yığma komandasının 9 idmançısının güclərini sınadığı bu yarışda hərbi qulluqçularımız yüksək nəticələr əldə etmişlər.

Şəxsi birincilikdə 62 kq çəki dərəsində 16075 saylı hərbi hissənin hərbi qulluqçusu çavuş İslamov Qardaş İslam oğlu, 74 kq çəki dərəsində 67987 saylı hərbi hissənin hərbi qulluqçusu baş leytenant Rəcəbov Qasım Ələsgər oğlu, 90 kq çəki dərəsində 25031 saylı hərbi hissənin hərbi qulluqçusu leytenant Rzayev Seymur Zahid oğlu və 100 kq çəki dərəsində 67987 saylı hərbi hissənin müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İsmayılov Vüqar Məmmədqasım oğlu 1-ci yeri tutmuşlar.

17072 saylı hərbi hissənin əsgəri İbrahimli Kənan Vüqar oğlu və 67987 saylı hərbi hissənin müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi

qulluqçusu əsgər Mehrəliyev Araz Əhliman oğlu isə müvafiq olaraq 62 və +100 kq çəki dərəcəsində 3-cü pillədə qərarlaşmışlar.

Hərbi qulluqçularımızın topladığı xalların ümumi nəticəsinə görə Daxili Qoşunların yığma komandası komanda birinciliyində bütün rəqiblərini geridə qoyaraq, kürsünün ən yüksək pilləsinə sahib çıxmışdır. Qalib komandamızın üzvləri kubok və fərmanlarla mükafatlandırılmışlar.

Komandamızı ürəkdən təbrik edir və uğurlarının davamlı olmağını arzulayırıq!

gizir X.Tağıyeva

BƏXTİYAR VAHABZADƏ

VƏTƏN

Çağırır indi bütün milləti imdada Vətən,
Dəyişilməz ey oğul, cənnətə dünyada Vətən.

Bizə meydan oxuyan bilməlidir birdəfəlik,
Nə satılmaz, nə verilməz binədən yada, Vətən.

Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən.

Vətən eşqindən ucalsın bütün istəklərimiz,
Yaşasın arzuda, məqsəddə, təmənnada Vətən.

Ulular uymadı var - dövlətə, yalnız dedilər:
- Ən böyük bəxşişimiz bizdən hər övlada: Vətən!

Vətən eşqindən alar Bəxtiyar öz qüdrətini
Döyünər qəlbi kimi hər yeni misrada Vətən.

ORDEN VƏ MEDALLARIMIZ

"AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ VETERANI" MEDALI

Azərbaycan Respublikasının "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 may 2002-ci il № 329-IIQ

Qanuna edilmiş dəyişiklik və əlavələrin siyahısı

30 mart 2004-cü il tarixli 612-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 5, maddə 312) ilə "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı haqqında Əsasnamənin 1-ci bəndində "Azərbaycan Respublikasının Silahlı Qüvvələrində" sözlərindən sonra "və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin sıralarında (SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla)" sözləri əlavə edilmişdir.

"AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ VETERANI" MEDALI HAQQINDA ƏSASNAMƏ

Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 329-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

1. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin sıralarında (SSRİ Silahlı Qüvvələri və digər silahlı birləşmələrində xidmət müddəti də nəzərə alınmaqla) 25 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçular təltif edilirlər.

2. "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalından sonra taxılır.

"AZƏRBAYCAN RESPUBLİKASI SİLAHLI QÜVVƏLƏRİ VETERANI" MEDALININ TƏSVİRİ

Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 329-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

"Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş və gümüş suyuna çəkilmiş, diametri 35 mm olan lövhədən ibarətdir.

Medalın ortasında Silahlı Qüvvələrin relyefli emblemi təsvir olunmuşdur. Emblemdən yuxarıda qövs boyunca "Azərbaycan Respublikası", aşağıda isə lent üzərində "Silahlı Qüvvələri Veteranı" sözləri həkk olunmuşdur. Aypara, ulduz və lent ağ rəngdədir. Arxa tərəfi hamar səthlidir.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə zeytun rəngli fonda, kənarlarından mərkəzə doğru ardıcıl olaraq Silahlı Qüvvələrin növlərinin rəngləri - 1 mm enində zeytun və ağ rəngli, 3 mm enində göy və ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir.

Medala paltara bərkidilmək üçün elementi olan eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

"QÜSURSUZ XİDMƏTƏ GÖRƏ" MEDALI

Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının Əsasnaməsinin və təsvirinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Azərbaycan Respublikasının "Qüsursuz xidmətə görə" medalının Əsasnaməsi və təsviri təsdiq edilsin (əlavə olunur).

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Heydər ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 17 may 2002-ci il № 330-IIQ

"QÜSURSUZ XİDMƏTƏ GÖRƏ" MEDALI HAQQINDA ƏSASNAMƏ

Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 330-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir (2 oktyabr 2008-ci il tarixli dəyişikliklə).

1. "Qüsursuz xidmətə görə" medalı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrində qüsursuz həqiqi hərbi xidmət keçən, hər il iyun ayının 26-na qədər 10, 15 və 20 təqvim ili tamam olmuş hərbi qulluqçular təltif edilirlər.

2. "Qüsursuz xidmətə görə" medalının üç dərəcəsi vardır:

"Qüsursuz xidmətə görə" 1-ci dərəcəli medal - Silahlı Qüvvələrdə 20 təqvim ili xidmətə görə;

"Qüsursuz xidmətə görə" 2-ci dərəcəli medal - Silahlı Qüvvələrdə 15 təqvim ili xidmətə görə;

"Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medal - Silahlı Qüvvələrdə 10 təqvim ili xidmətə görə.

1-ci dərəcəli medal ən ali dərəcəlidir.

3. "Qüsursuz xidmətə görə" medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" Azərbaycan Respublikasının yubiley medalından sonra taxılır.

"QÜSURSUZ XİDMƏTƏ GÖRƏ" 1-ci, 2-ci VƏ 3-cü DƏRƏCƏLİ MEDALININ TƏSVİRİ

Azərbaycan Respublikasının 2002-ci il 17 may tarixli 330-IIQ nömrəli Qanunu ilə təsdiq edilmişdir.

"Qüsursuz xidmətə görə" medalı milli ornamentli ensiz lövhə ilə birgə bürüncdən tökülmüş, dairəvi formalı və diametri 35 mm girdə lövhədən ibarətdir.

Medalın ön tərəfində açılmış qartal qanadları fonunda çarpazlaşdırılmış tüfənglər və lövbər təsvir edilmişdir.

Medalın yuxarısında milli ornamentin üzərində aypara ilə səkkizguşəli ulduz, aşağısında isə palıd yarpaqlarından çələnglər yerləşdirilmişdir.

Medalın 3-cü dərəcəsi gümüşü rəngli, 2-ci dərəcəsi qızılı rəngli, 1-ci dərəcəsi qızılı rəngli, aypara ilə ulduz ağ, tüfənglər gümüşü, lövbər isə qara rəngdədir.

Arxa tərəfi hamar səthlidir, ortasında 1-ci dərəcəli medalda "20 il qüsursuz xidmətə görə", 2-ci dərəcəli medalda "15 il qüsursuz xidmətə görə", 3-cü dərəcəli medalda "10 il qüsursuz xidmətə görə" sözləri yazılmış və milli ornamentin üzərində aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Çevrə boyunca yuxarıda "Azərbaycan Respublikası", aşağıda isə "Silahlı Qüvvələri" sözləri həkk olunmuşdur.

Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 27 mm x 43 mm ölçüdə düzbucaqlı xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentdə zeytun rəngli fonda, kənarlarından mərkəzə doğru ardıcıl olaraq Silahlı Qüvvələrin növlərinin rəngləri - 1 mm enində zeytun və ağ rəngli, 3 mm enində göy və ağ rəngli şaquli zolaqlar təsvir edilmişdir. Zeytun rəngin ortasında medalın 1-ci dərəcəsi üçün eni 1 mm olan qızılı rəngli bir şaquli zolaq, 2-ci və 3-cü dərəcəsi üçün eni 1 mm olan müvafiq olaraq iki və üç zolaq vardır.

Medala paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 27 mm x 9 mm ölçülü qəlib əlavə olunur.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000